# AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ

## ƏMR

№ Ü/012

Bakı şəhəri "05" fevral 2021 il

**Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi sədrinin "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi adından protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin siyahısının təsdiq edilməsi haqqında" 2018-ci il 17 oktyabr tarixli Ü-065 nömrəli əmrində dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 28 yanvar 2021-ci il tarixli Fərmanının müddəalarını rəhbər tutaraq və Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin 5.5.6 və 5.5.10-cu yarımbəndlərinə uyğun olaraq

**ƏMR EDİRƏM:**

1. Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin baxdığı inzibati xətalara dair işlər üzrə və rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi adından protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin siyahısı təsdiq edilsin (əlavə olunur).
2. Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi sədrinin 2018-ci il 17 oktyabr tarixli Ü-065 nömrəli əmrinin 1-ci hissəsi ləğv edilsin.
3. Agentliyin İnformasiya təminatı və innovativ həllər şöbəsinin müdiri **Mansur Piriyev** bu əmrin 1-ci hissəsi ilə təsdiq edilmiş siyahının Agentliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.
4. Hüquq, kadr və icraya nəzarət şöbəsinin müdiri vəzifəsini icra edən **Elşad Cəbrayılov** bu əmrin surətinin aidiyyəti üzrə göndərilməsini təmin etsin.
5. Bu əmrin icrasına nəzarət sədr müavini **Zəkiyyə Mustafayevaya** həvalə edilsin.

**Sədr** **Qoşqar Təhməzli**

*Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sədrinin "05" 02 2021-ci il tarixli U/012 nömrəli əmri ilə təsdiq edilmişdir.*

**Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin baxdığı inzibati xətalara dair işlər üzrə və rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi adından protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı**

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 18-1-ci bəndinə uyğun olaraq Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (bundan sonra - Agentlik) adından inzibati xətalar haqqında işlər üzrə protokol aşağıdakı vəzifəli şəxslər tərəfindən tərtib edilir:

- Agentliyin sədri
- Agentlik sədrinin müavinləri

- **Agentlik Aparatı üzrə:**
  Aparatın rəhbəri
  şöbə müdiri
  şöbə müdirinin müavini
  sektor müdiri
  baş məsləhətçi
  böyük məsləhətçi
  aparıcı məsləhətçi
  məsləhətçi

- **Agentliyin regional bölməsi üzrə:**

  regional bölmənin rəhbəri
  regional bölmə rəhbərinin müavini
  sektor müdiri
  baş məsləhətçi
  böyük məsləhətçi
  aparıcı məsləhətçi
  məsləhətçi